# Mingəçevir şəhər Üzeyir Hacıbəyli adına Uşaq Musiqi məktəbi



Çox dəyərli oxucular, «Musiqi aləmində» jurnalının bu buraxılışında Mingəçevir şəhərində yerləşən dahi bəstəkarımız Üzeyir Hacıbəylinin adını daşıyan 11 illik musiqi məktəbindən də bəhs olunur. Ü.Hacıbəyli adına 11 illik musiqi məktəbi M.Ə.Sabir küçəsi 18/2 ünvanında yerləşir. 2 mərtəbəli müstəqil binadan ibarətdir. Sahəsi 3624 kvm-dir. Məktəb 1953-cü ildən fəaliyyət göstərir. Əvvəl 7 illik musiqi məktəbi olub. Cəmi 12 müəllimlə fəaliyyətə başlayıb. Hal-hazırda məktəbdə müxtəlif ixtisaslar üzrə 215 müəllim fəaliyyət göstərir. Çox savadlı və təcrübəli müəllimlərin, onların istedadlı yetirmələrinin nailiyyətlərini nəzərə alaraq, məktəbə 2011-ci ildən «11 illik» statusu verilmişdir.

Hal-hazırda məktəbdə 3 şöbə fəaliyyət göstərir;

Fortepiano şöbəsi, Xalq Çalğı Alətləri şöbəsi, nəzəriyyə şöbəsi, fortepiano şöbəsinin nəzdində fortepiano, violin sinifləri. Xalq Çalğı Alətləri şöbəsinin nəzdində; tar, qarmon, kamança, nağara, xanəndə sinifləri. Nəzəriyyə şöbəsinin nəzdində musiqi nəzəriyyəsi və xor sinifləri fəaliyyət göstərir. Məktəbin şagirdlərdən ibarət Xor kollektivi, Xalq Çalğı Alətləri orkestri və müəllim və şagirdlərdən ibarət Vokal qrupu var. Orkestrin bədii rəhbəri: Elşən Bağırov, konsertmeysteri: Rəsul İsgəndərovdur. Orkestr mütəmadi olaraq Respublika və Mingəçevir şəhərinin dövlət tədbirlərində, hərbi hissələrdə maraqlı proqramlarla çıxış etmişdir. Orkestrin repertuarı Azərbaycan və xarici ölkə bəstəkarlarının əsərlərindən ibarətdir. O cümlədən muğamlar əsasında bəstələnmiş kompozisiyalar orkestrin repertuarında görkəmli yer tutur.

Məktəbin istedadlı şagirdlərindən ibarət xor kollektivi. Uşaq Musiqi və İncəsənət məktəblərinin arasında keçirilən «Xor kollektivlərinin Respublika müsabiqələri»ndə dəfələrlə I və II yerlərin qalibi olmuşdur. Xorun bədii rəhbəri: Yeganə Umarova, konsertmeysteri: Xəyalə Rüstəmovadır.

Məktəbin ifaçılıq məharəti olan istedad-



lı müəllimlərdən ibarət vokal qrupu zəngin repertuarı ilə professional ifalar nümayiş etdirərək, 2022-ci ilin may ayında Bakıda keçirilən «ARTS Olimpia» Respublika müsabiqəsinin birinciliyini qazanaraq, Diplom və medallarla təltif olundular.




Hər il tədris proqramına uyğun olaraq məktəbdə açıq dərslər, akademik konsertlər, texniki yoxlamalar, sinifdən-sinfə keçid imtahanları keçirilir. Prezidentin sərəncamı ilə əlaqədar olaraq tədbirlər, bəstəkarların yaradıcılıq gecələri, şəhər tədbirləri, əlamətdar günlər məktəbdə qeyd olunur.

Məktəbin ilk müəllimlərini də unutmaq olmaz; Əhmədov Məmmədvəli, Ağamirzadə Sabir, Zeynalov Şəmistan, Zülfüqarov Nüsrət, Əsgərov Damət, Həsənov Əjdərəli, Məmmədov Əli, Əliyev Təyyar, Zaqorskaya Antonina, Kaxadjelidze İrina və s. Onlar məktəbdə uzun illər çalışmış və illər ərzində çox sayda tələbələr yetişdirmişlər. Bu illər ərzində məktəbdə musiqi mədəniyyətinin əsaslarının yaranmasını təmin edən illər kimi də qiymətləndirmək olar.



İllər ərzində musiqi məktəbinə rəhbərlik etmiş; Həsənov Aydın, Mürsəlov Nemət, Mirzəyev Namiq, İsmayılov Cəlal, Salamova Esmira və Məmmədov Vüsal müəllimin adını çəkmək olar.

Məktəbin direktoru Vüsal müəllim dəfələrlə Dünya tv və El tv-nin qonağı olub. Türkiyənin və Azərbaycanın nüfuzlu media orqanlarında məktəbin layihələri haqda geniş məlumatlar verib. Məlum pandemiya dövründə insanlara ruh yüksəkliyi vermək üçün məhz Vüsal müəllimin təşəbbüsü ilə İlk dəfə məktə-



bin səs müəllimləri «Eyvana çıx» adlı konsert proqramı ilə çıxış etdilər. Sərhədlər bağlı olsa da, dünya ölkələri arasında mədəniyyət nişanəsi kimi tanınan «Sarı gəlin» mahnısı Regional Mədəniyyət İdarələri arasında Mingəçevir şəhər Ü.Hacıbəyli adına musiqi məktəbinin təşəbbüsü ilə 5 ölkədə- Azərbaycan, Türkiyə, Amerika, İran və Fransada yaşayan musiqiçilərimiz pandemiya ilə əlaqədar "Evdə qal"



kompaniyasına qoşularaq bu musiqi əsərimizi canlı ifa etdilər..15 iyun Qurtuluş Gününə həsr edilmiş 4 Regionun iştirakı ilə çəkilmiş klip də rəğbətlə qarşılandı.Məktəbin Xalq Çalğı Alətləri orkestri zoom proqramı ilə Türkiyə Cümhuriyyətinin Bengü kanalında canlı musiqi proqramı ilə çıxış etdilər.

27 sentyabr Anım günü münasibətilə məktəbin qarşısında sərgi keçirilib.

44 günlük Vətən müharibəsindən sonra qazanılan möhtəşəm qələbənin 1-ci il dönümü münasibətilə, Üzeyir Hacıbəyli adına 11 illik musiqi məktəbinin müəllim heyəti, xor kollektivi, Xalq Çalğı Alətləri orkestrinin və səs müəllimlərinin iştirakı ilə Mingəçevir Dövlət Dram teatrında şəhər ictimaiyyətinə Zəfər gününə həsr olunmuş "Zəfər nəğmələri" adlı konsert proqramı təqdim olunub.Vüsal müəllimin təşəbbüsü ilə məktəbin səs müəllimləri dəfələrlə hərbi hissələrdə əsgərlərin qarşısında konsert proqramları ilə çıxış ediblər.

Uzun müddətdir ki, məktəbin təmirə ehtiyacı var idi. Bərdə Regional Mədəniyyət idarəsinə yeni rəis təyin olunduqdan sonra məktəb təmirə başlayıb. Vəsilə xanım Möhsümova mütəmadi olaraq təmirin gedişatı ilə maraqlanır, öz təklif və iradlarını bildirir, öz köməyini əsirgəmir.

Ümid edirik ki, Mingəçevir şəhər Üzeyir Hacıbəyli adına 11 illik musiqi məktəbinin kollektivi Vüsal müəllimin başçılığı ilə daha böyük uğurlara imza atacaq, nailiyyətlər qazanacaq. Bu çətin pedaqoji işdə hər birinə uğurlar diləyirik.

Hər biriniz çox yaşayın,
mümkün qədər çox yaradın!
Yeni-yeni uğurlar.
İrəli!!!

**Məmmədov Vüsal Məhəmməd oğlu**



28.11.1985-ci ildə Bərdə şəhərində anadan olub.1992-2003-cü illərdə Xətai 58 saylı orta məktəbdə təhsil alıb. Oranı bitirdikdən sonra həmin il tarix fakültəsinə daxil olub.2007-ci ildə məzun olub.Naxçıvanda N saylı hərbi hissədə hərbi xidmətdə olub.2009-2014-cü illərdə Mingəçevir şəhərində yerləşən Cəbrayıl rayon 18 saylı orta məktəbində müəllim, daha sonra direktor müavini vəzifəsində işləyib.2014-2019-cu illərdə Mingəçevir Dövlət Dram teatrında direktor müavini işləyib.2019-cu ilin oktyabrın 12-dən Mingəçevir şəhər Üzeyir Hacıbəyli adına 11 illik Musiqi məktəbinin direktoru işləyir.Hal-hazırda Azərbaycan Milli Konservatoriyasının sonuncu kursunda oxuyur. Ailəlidir. 2 övladı var.

**Əzizov Ağaismayıl Səhrab oğlu**



11.02.1959-cu ildə Mingəçevir şəhərində anadan olmuşdur.1970-1975-ci illərdə Üzeyir Hacıbəyli adına musiqi məktəbində tar ixtisası üzrə təhsil almışdır.1975-1980-ci illərdə Şəki orta ixtisas musiqi məktəbində təhsil almış, 1980-ci ildən bu günə kimi Üzeyir Hacıbəyli adına 11 illik musiqi məktəbində tar müəllimi işləyir.1996-cı ildən Yeni Azərbaycan Partiyasının üzvüdür.2013-cü ildən məktəbin Xalq Çalğı Alətləri şöbəsinin müdiri vəzifəsində çalışır.İşlədiyi illər ərzində şöbənin gənc müəllimlərinə böyük qayğı göstərir,metodiki dərslər keçirir,onlara öz köməyini əsirgəmir.Orkestr yaranan gündən özü və şagirdləri mütəmadi olaraq fəaliyyət göstərirlər. Ağaismayıl müəllim məktəbin bütün ictimai işlərində fəal iştirak edir,məktəbin musiqi alətlərinin təmiri ilə mütəmadi olaraq məşğul olur.İşlədiyi illər ərzində Mədəniyyət Nazirinin, Regional Mədəniyyət İdarəsinin rəisinin, Mədəniyyət və məktəb direktorları tərəfindən Fəxri Fərmanlarla təltif olunmuşdur. Ailəlidir. 2 övladı var.

**Tağıyeva İntizar Fidail qızı.**



11.05.1959-cu il Mingəçevir şəhərində anadan olub.1975-ci ildə Şəki orta ixtisas musiqi məktəbinə qəbul olub, 1979-cu ildə məktəbi bitirib, elə həmin ildən də Üzeyir Hacıbəyli adına musiqi məktəbinə qəbul olub bu günə qədər də o məktəbdə çalışır.İxtisası: fortepiano müəllimi və konsertmeyster.1982-1985-ci illərdə məktəbin birləşmiş xorunun konsertmeysteri, 1980-1990-cı illərdə tar siniflərində müşayətçi işləyib.1992-ci ildən bu günə qədər məktəbin fortepiano şöbəsinin müdiri vəzifəsində çalışır.Dəfələrlə təşəkkürnamə və fəxri fərmanlarla təltif olunub.Bu 43 il ərzində yüzlərlə bacarıqlı şagirdlər yetişdirib.Onlardan bəziləri elə bu məktəbdə, bir neçəsi Bakıda, Şamaxıda hətta Rusiyanın Moskva şəhərində müəllim işləyirlər.Şagirdləri Respublikamızda keçirilən müxtəlif müsabiqələrdə diplomlara layiq görülmüşlər

**Rüstəmova Aynur Üzeyir qızı.**



30.04.2010-cu ildə Mingəçevir şəhərində anadan olub.Hal-hazırda məktəbin 6-cı sinif şagirdidir. «Ümid 2022» müsabiqəsində 1-ci yerin qalibi , Bakıda Azərbaycan Gənclər İttifaqının təşkil etdiyi müsabiqədə Aynur 2-ci yerin qalibi, bundan başqa Rüstəmova Aynur Sankt-Peterburq və Qazaxıstanda keçirilmiş onlayn müsabiqələrdə də iştirak etmiş və 2-ci,3-cü yerlərin qalibi olmuşdur.

**Allahverdiyeva Mənsə Mübariz qızı.**
10.08.2012-ci ildə Mingəçevir şəhərində anadan olmuşdur. Hal-hazırda musiqi məktəbində 2-ci sinifdə təhsil alır.2022-ci ilin May ayında Bakıda Azərbaycan Gənclər İttifaqının təşkil etdiyi müsabiqədə birinci yerə layiq görülmüşdür



**Abdullayev Bəhruz**
9-cu sinif şagirdi Abdullayev Bəhruz mart ayında Şəki 2022 «Böyük Qafqaz İncəsənət və Rəqs Kuboku» müsabiqəsində 2-ci yer, «Ümid 2022» müsabiqəsində 3-cü yer, «ARTS Olimpia» müsabiqəsində 1-ci yerin qalibi olmuşdur.





















**Səidə ŞIXƏLİYEVA**
Tədris işləri üzrə direktor müavini